AZƏRBAYCAN RESPUBKLİKASININ
AUDİTORLAR PALATASI

AZƏRBAYCAN RESPUBLİKASI AUDİTORLAR PALATASININ FƏALİYYƏTƏ BAŞLAMASININ 25 İLLİYİ İLƏ ƏLAQƏDAR YUBİLEY TƏDBİRLƏRİ VƏ BEYNƏLXALQ ELMİ-PRAKTİKİ KONFRANS BARƏDƏ

H E S A B A T

Məsul şəxs:

İcraçı direktor *Səbuhi Gülməmmədov*

BAKI - 2021

Azərbaycan Respublikası Auditorlar Palatasının fəaliyyətə başlamasının 25 illiyi ilə əlaqədar yubiley tədbirləri və beynəlxalq elmi-praktik konfransın keçirilməsi barədə

Bu məqsədlə Auditorlar Palatasının fəaliyyətə başlamasının 25 illiyinin qeyd edilməsi ilə əlaqədar Palata sədrinin 2020-ci il 27 iyul tarixli 1/21 nömrəli sərəncamı ilə Tədbirlər Planı təsdiq edilmiş və Palatanın 2021-ci il üzrə İş Planında 6.2-ci "Azərbaycan Respublikası Auditorlar Palatasının fəaliyyətə başlamasının 25 illiyi ilə əlaqədar yubiley tədbirlərinin və Beynəlxalq elmi-praktiki konfransın keçirilməsi" bəndi nəzərdə tutulmuşdur.

Nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi məqsədilə, Auditorlar Palatasının fəaliyyətə başlamasının 25 illiyi münasibətilə xarici tərəfdaşların iştirakı ilə beynəlxalq elmi-praktik konfransın və yubiley tədbirlərinin keçirilməsinə razılıq verməsi və bu tədbirlərin həyata keçirilməsi məqsədilə Auditorlar Palatasına dəstək göstərilməsi üçün 2020-ci il 10 dekabr tarixində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə 01-1/123 nömrəli icazə xarakterli məktub göndərilmişdir.

Daha sonra Auditorlar Palatasının fəaliyyətə başlamasının 25 illiyinin qeyd edilməsi ilə əlaqədar ilk öncə müvafiq dövlət qurumlarına, Palatanın üzv olduğu beynəlxalq və yerli peşəkar qurumlara və əməkdaşlıq etdiyi xarici ölkələrin audit və mühasibatlıq qurumlarına yubileylə əlaqədar məlumat xarakterli məktubların hazırlanması və göndərilməsi təmin edilmişdir.

Auditorlar Palatasının 25 illiyi ilə əlaqədar nəzərdə tutulan tədbirlərdən biri də ağacəkmə kompaniyasının keçirilməsi olmuşdur. Bu məqsədlə 2021-ci il 27 fevral tarixində Bakı şəhərinin Nizami rayonu, Qara Qarayev prospekti ərazisində Azərbaycan Respublikası Auditorlar Palatasının 25 illik yubileyinə həsr edilən ağacəkmə kampaniyası keçirilmişdir.

Ağacəkmə kompaniyasında Palatanın rəhbərliyi, üzvləri və əməkdaşları iştirak etmişdir.

Azərbaycan Respublikası Auditorlar Palatasının fəaliyyətə başlamasının 25 illiyinin qeyd edilməsi ilə əlaqədar Tədbirlər Planında nəzərdə tutulmuş təşkilati tədbirlərdən biri də sənədli filmin hazırlanması olmuşdur və bu məqsədlə Auditorlar

Palatasının keçdiyi dövr üzrə “Auditorlar Palatası-25 il” adlı sənədli film hazırlanmışdır.

Tədbirlər Planında nəzərdə tutulmuş tədbirlər sırasında Auditorlar Palatasının fəaliyyətə başlamasının 25 illik yubileyi ilə əlaqədar ən yaxşı “Müxbir yazısı” müsabiqəsinin keçirilməsi də olmuşdur. Bununla bağlı elan hazırlanmış və həmin elanda göstərilmişdir ki, müsabiqədə iştirak etmək istəyən müxbirlər öz nəşr etdirilmiş məqalələrini 2020-ci ilin 01 sentyabr tarixindən 2021-ci il 15 fevral tarixinədək Auditorlar Palatasının Müsabiqə Komissiyasına təqdim etməlidirlər. 1-ci yer üçün 1000 manat, 2-ci yer üçün 2 nəfərin hər birinə 500 manat, 3-cü yer üçün 2 nəfərin hər birinə 300 manat məbləğində mükafat nəzərdə tutulmuşdur. Bu barədə hazırlanmış elan Palatanın internet səhifəsində yerləşdirilmişdir. Palata sədrinin 2020-ci il 13 avqust tarixli sərəncamı ilə ən yaxşı “Müxbir yazısı” qaliblərinin müəyyən edilməsi üçün müsabiqə komissiyası yaradılmışdır. Müsabiqə komissiyasının 2021-ci il 25 fevral tarixində onlayn qaydada keçirilən iclasının qərarına əsasən “İqtisadiyyat” qəzetinin müxbiri Mətanət Hüseynova “İqtisadiyyatda şəffaflıq və nəzarətin səmərəliliyinin artmasına xidmət edən vacib struktur” məqaləsinə görə 1-ci yerə, “AZƏRTAC” informasiya agentliyinin müxbiri Samirə Quliyeva “Azərbaycanda şəffaflığın artırılması istiqamətində konseptual yanaşmalar formalaşdırılıb” və Müstəqil jurnalist Akif Cabbarlı “Müasir və təkmil audit sistemi şəffaf idarəetmənin əsasını təşkil edir” məqalələrinə görə 2-ci yerə, “Vergilər.az” qəzetinin müxbiri Fərqanə Allahverdi qızı “Maliyyə hesabatlarının şəffaflaşmasında məcburi auditin rolu” və “Bakı-Baku.az” informasiya agentliyinin müxbiri Samir Mustafayev “Maliyyə intizamının təmini əsas hədəfdir” məqalələrinə görə 3-cü yerə layiq görülmüşdür. Müsabiqədə iştirak edən müxbirlər diplom və müvafiq mükafatlarla təltif edilmişlər və həmin mükafatlar onların bank hesablarına köçürülmüşdür.

Azərbaycan Respublikası Auditorlar Palatasının fəaliyyətə başlamasının 25 illik yubileyi ilə əlaqədar ən yaxşı “Müxbir yazısı” müsabiqəsinin qaliblərinin müəyyən edilməsi barədə məlumat 5 mart 2021-ci il tarixdə AZƏRTAC tərəfindən yayımlanmışdır. Auditorlar Palatasının fəaliyyətə başlamasının 25 illik yubileyi ilə əlaqədar ən yaxşı “Müxbir yazısı” müsabiqəsində iştirak edən müxbirlərə və müsabiqə komissiyasının üzvlərinə Palatanın sədri, iqtisad elmləri doktoru, professor Vahid Novruzovun adından, icraçı direktoru Səbuhi Gülməmmədov və

Aparatın rəhbəri, Müsabiqə komissiyasının sədri Qəşəm Bayramov tərəfindən təşəkkür edilmişdir. Tədbirin sonunda müsabiqədə iştirak edən müxbirlərin adından "İqtisadiyyat" qəzetinin müxbiri Mətanət Hüseynova, Azərbaycan Respublikası Kinomotoqrafçılar İttifaqının redaktoru Akif Cabbarlı və əməkdar jurnalist Samir Mustafayev çıxış edərək onların məqalələrinin yüksək qiymətləndirilməsinə görə Auditorlar Palatasının sədri, iqtisad elmləri doktoru, professor Vahid Novruzova, Palatanın kollektivinə və Müsabiqə komissiyasının üzvlərinə minnətdarlıq etmişdirlər.

Auditorlar Palatasının fəaliyyətə başlamasının 25 illiyi münasibətilə həyata keçirilən əhəmiyyətli tədbirlərdən biri də 2021-ci il 03 aprel tarixində Azərbaycan Respublikası Auditorlar Palatasının sədri, iqtisad elmləri doktoru, professor Vahid Novruzovun və Palatanın icraçı direktoru Səbuhi Gülməmmədovun "Respublika" qəzetində "Azərbaycan Respublikasının Auditorlar Palatası - 25: Uğurlar və prespektivlər" başlıqlı birgə məqaləsinin dərc olunması olmuşdur.

Digər önəmli tədbir Auditorlar Palatasının fəaliyyətə başlamasının 25 illiyi münasibətilə 2021-ci il 05 aprel tarixində Auditorlar Palatasının fəaliyyətə başlamasının 25 illiyinə həsr olunmuş onlayn tədbirin keçirilməsi olmuşdur.

Tədbirdən öncə iştirakçılar xalqımızın ümummilli lideri Heydər Əliyevin "Fəxri Xiyaban"da məzarını ziyarət etmişdirlər.

Tədbiri Auditorlar Palatasının icraçı direktoru Səbuhi Gülməmmədov açaraq, ilk öncə qonaqları salamlamış və "Azərbaycan auditi - 25 ildə" mövzusunda məruzə ilə çıxış etmək üçün sözü Palatanın sədri, iqtisad elmləri doktoru, professor Vahid Novruzova vermişdir. V.Novruzov geniş məruzə ilə çıxış edərək Palatanın son 25 ildə gördüyü işlərdən, ölkəmizdə auditin inkişafından, perspektivlərindən və qarşıda duran vəzifələrdən danışmışdır. O, eyni zamanda ölkə Prezidentinin auditə verdiyi dəstəkdən danışdı və Palatanın bir sıra əməkdaşlarının və üzvlərinin əməyinin qiymətləndirilməsini qeyd etmişdir. Auditorlar Palatası əməkdaşların, üzvlərinin və auditin inkişafına xüsusi töhfələr vermiş şəxslərin əməyinin qiymətləndirilməsi məqsədilə, 14 nəfərə "Fəxri Auditor" döş nişanı, 30 nəfərə "Fəxri Fərman" və 1 nəfərə "Fəxri üzv" statusu verilmişdir.

Sonra Auditorlar Palatasının 25 illiyinə həsr edilmiş "Azərbaycan auditi - 25" sənədli filmi nümayiş etdirilmiş və yubileylə əlaqədar yerli və xarici qurumlardan daxil olmuş təbriklərin siyahısı oxunmuşdur.

Tədbirdə Azərbaycan İqtisadçılar İttifaqının sədri, Beynəlxalq İqtisadçılar İttifaqının vitse-prezidenti, millət vəkili, akademik Ziyad Səmədzadə, Azərbaycan Mərkəzi Kooperativlər İttifaqı – "Azərittifaq"ın sədri, Azərbaycan Kooperasiya Universitetinin rektoru, Azərbaycan Ağsaqqallar Şurasının sədri, millət vəkili, iqtisad elmləri doktoru, professor Eldar Quliyev, Azərbaycan Respublikası Hesablama Palatasının sədri Vüqar Gülməmmədov, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, millət vəkili Səttar Mehbalıyev, Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Nazim Rəcəbov, AMEA-nın İqtisadiyyat İnstitutunun nəzdində "Post-konflikt Ərazilərin Bərpası Elmi Mərkəzi"nin rəhbəri, AMEA-nın müxbir üzvü Akif Musayev, Azərbaycan Banklar Assosiasiyasının prezidenti Zakir Nuriyev, Auditorlar Palatası Şurasının üzvü, "Ernst & Yanq Holdinqs (SiAyEs) Bi.Vi." şirkətinin Azərbaycan Respublikasındakı filialının idarəedici partnyoru İlqar Vəliyev, Azərbaycan Professional Maliyyə Menecerləri Assosiasiyasının prezidenti Nuriyyə Novruzova, Azərbaycan Mühasiblər və Risk Peşəkarları Assosiasiyasının İdarə Heyətinin sədri Günay Şahbazova, Auditorlar Palatasının üzvü, "LŞ Audit" MMC-nin direktoru Fərhəddin Hüseynov Palatanın yubileyi ilə əlaqədar təbrik nitqi söyləyərək öz ürək sözlərini bildirmişlər.

Tədbirdə qonaqlarla bərabər Auditorlar Palatasının kollektivi, üzvləri və mətbuat nümayəndələri iştirak etmişlər.

Sonda Azərbaycan auditorları adından Zati-aliləri cənab İlham Əliyevə müraciət qəbul olunmuşdur. Tədbir öz işini mətbuat konfransı ilə başa çatdırmışdır.

Eyni zamanda Tədbirlər Planı çərçivəsində 1996-2021-ci illərdə Auditorlar Palatasının Azərbaycanda auditin inkişafında baş vermiş ən önəmli faktlar barədə yığcam məlumatın əks olunduğu "Faktlar" kitabı, Auditorlar Palatasının fəaliyyətə başlamasının 25 illiyi münasibətilə Palatanın ünvanına daxil olmuş ölkənin dövlət və özəl qurumlarından, qeyri-hökumət təşkilatlarından, səfirliklərdən, ali təhsil müəssisələrindən, eyni zamanda Palatanın üzv olduğu beynəlxalq peşəkar qurumlardan və xarici həmkarlarımızdan çoxsaylı təbrik məktubları və video müraciətlərin öz əksini tapdığı "Yubiley təbrikləri" kitabı və 25 ildə Azərbaycan auditinə öz töhfələrini vermiş Auditorlar Palatasının rəhbərliyi, struktur bölmələrinin rəhbərləri və üzvləri barədə yığcam məlumatın verildiyi "Azərbaycan Respublikası Auditorlar Palatasının kollektivi və üzvləri – 1996-2021" kitabı nəşr olunmuşdur.

Qeyd olunanlarla yanaşı 16 sentyabr 2021-ci il tarixində Auditorlar Palatası və Azərbaycan İqtisadçılar İttifaqının birgə təşkilatçılığı ilə təşkil olunmuş “Şəffaflıq və audit: yeni dövrün çağırışları, problemlər, vəzifələr” mövzusunda beynəlxalq elmi-praktik konfrans keçirilmişdir.

Sevindirici haldır ki, şəffaflığın artırılması Azərbaycanda həyata keçirilən dövlət quruculuğu strategiyasının mühüm hədəfləri sırasında özünə möhkəm yer tutur. Prezident İlham Əliyevin söylədiyi “Şəffaflıq, təmizlik, dürüstlük həyat tərzi olmalıdır” sözləri Azərbaycanda iqtisadi inkişaf modelinin mühüm komponenti kimi şəffaflığa önəm verilməsinin bariz nümunəsi hesab edilə bilər.

Qeyd etmək lazımdır ki, şəffaflıq, kölgə iqtisadiyyatı və korrupsiya dünyəvi problem olaraq qalmaqla yeni iqtisadi şəraitdə beynəlxalq səviyyədə səylərin birləşdirilməsini zəruri edir. Fikrimizcə, keçirilmiş konfransda bu sahədə konkret bir addım kimi dəyərləndirilə bilər.

Bütün dünyada büdcə xərclərinə nəzarəti və maliyyə intizamını gücləndirmək, gəlirlərdən səmərəli istifadəni təmin etmək cəmiyyəti daim qayğılandıran məsələlərdəndir. Şəffaflıq olmadan qazanılan iqtisadi uğurların davamlılığını və sosial rifahı təmin etmək mümkün deyildir.

Bu baxımdan, Auditorlar Palatasının 25 illik yubileyi münasibətilə 16 sentyabr 2021-ci il tarixində Auditorlar Palatası və Azərbaycan İqtisadçılar İttifaqının birgə təşkilatçılığı ilə yüksək səviyyədə təşkil olunmuş “Şəffaflıq və audit: yeni dövrün çağırışları, problemlər, vəzifələr” mövzusunda keçirilmiş beynəlxalq elmi-praktik konfrans iqtisadi inkişafın müasir rəqəmsallaşma mərhələsində şəffaflığın təmin edilməsində və hesabatlılığın yüksək səviyyədə qurulmasında, kölgə iqtisadiyyatının aradan qaldırılmasında, korrupsiyaya qarşı mübarizədə dövlət və qeyri-dövlət nəzarətinin, həm də ictimai nəzarətin, o cümlədən müstəqil auditin rolunun getdikcə artırılmasına, bu sahədə mövcud olan problemlərin və qarşıda duran vəzifələrin müəyyənləşdirilməsinə öz töhfəsini vermiş, səmərəli əməkdaşlıq çərçivəsində mütərəqqi dünya təcrübəsinin öyrənilməsi və tətbiqi üçün geniş imkanlar yaratmışdır.

Bakıda təşkil edilən konfrans çərçivəsində ölkə iqtisadiyyatının dayanıqlı və hərtərəfli inkişafının mühüm amili kimi müəyyən edilmiş bir sıra məsələlər, o cümlədən şəffaflığın artırılması və hesabatlılığın yüksək səviyyədə qurulması, maliyyə hesabatlılığı sahəsində qabaqcıl təcrübənin tətbiqi, rəqəmsallaşmaya

keçid, rəqəmsallaşmanın mühasibat uçotu və daxili nəzarətə təsiri, korrupsiya və iqtisadi fəaliyyət sahəsində baş verən cinayətlərin qarşısının alınması, auditdə yeni innovasiyaların və texnologiyaların tətbiqi, auditin keyfiyyətinin yaxşılaşdırılması, Beynəlxalq Mühasibat Uçotu və Audit Standartlarının, korporativ idarəetmə standartlarının tətbiqinin genişləndirilməsi, maarifləndirmə və əməkdaşlıq məsələləri üzrə təcrübə mübadiləsi və hərtərəfli müzakirələr aparılmışdır.

Konfransda 12 ölkənin (Azərbaycan, Avstriya, Belçika, Türkiyə, Özbəkistan, Rusiya Federasiyası, Latviya, Polşa, Gürcüstan, Ukrayna, Makedoniya, Çernoqoriya) müvafiq audit və mühasibatlıq qurumlarını, beynəlxalq peşəkar təşkilatları, ölkəmizin dövlət və qeyri-hökumət təşkilatlarını, özəl sektoru, kütləvi-informasiya vasitələrini, ali təhsil və elmi-tədqiqat institutlarını təmsil edən 30-dan çox qurumdan 60-a yaxın nümayəndə iştirak etmişdir.

Konfrans iştirakçıları ilk öncə Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin məzarını ziyarət edərək əklil qoymuş, oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın məzarı üzərinə də gül dəstələri düzmüşlər.

Tədbiri Azərbaycan Respublikası Auditorlar Palatasının sədri, iqtisad elmlər doktoru, professor Vahid Novruzov açaraq, iştirakçıları və qonaqları salamlamış və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2021-ci il 15 sentyabr tarixli 1/518 nömrəli “Şəffaflıq və audit: yeni dövrün çağırışları, problemlər, vəzifələr” mövzusunda beynəlxalq elmi-praktik konfransın iştirakçılarına ünvanlandığı təbrik məktubunu iştirakçıların diqqətinə çatdırmışdır.

Tədbir iştirakçılarına həmçinin Zati-aliləri cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə son dövrlərdə iqtisadi islahatların aparılması, auditin inkişafı, şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə istiqamətində görülən işlər və müstəqil auditə göstərilən böyük diqqət və qayğı barədə geniş məlumat verilmişdir.

Eyni zamanda, Vahid Novruzov Palatanın 25 il ərzində gördüyü işlərdən, həyata keçirdiyi tədbirlərdən, ölkəmizdə auditin inkişafından, perspektivlərindən və qarşıda duran vəzifələrdən danışmışdır.

Daha sonra Azərbaycan İqtisadçılar İttifaqının sədri, Milli Məclisin deputatı, akademik Ziyad Səmədzadə qonaqları salamlayıb konfransın işinə uğurlar arzulamışdır.

Konfransın əvvəlində həmçinin Auditorlar Palatasının yubileyi münasibətilə auditor fəaliyyətinin inkişafında xidmətlərinə görə Azərbaycan Respublikası

Prezidenti cənab İlham Əliyevin 2021-ci il 15 aprel tarixli “Azərbaycan Respublikası Auditorlar Palatasının üzvlərinin “Tərəqqi” medalı ilə təltif edilməsi haqqında” Sərəncamı ilə təltif edilmiş Palatanın 11 nəfər əməkdaşına və üzvünə medallar təqdim edilmişdir.

Konfransın davamı olaraq, Azərbaycan Respublikası Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədov “KOB-ların uçot və hesabatlılığının sadələşdirilməsi və təkmilləşdirilməsi imkanları” mövzusunda, Avstriya “Johannes Kepler University Linz”in professoru, dünyada kölgə iqtisadiyyatını təhlil edən görkəmli tədqiqatçı alim Fridrix Şnayder “Karona pandemiyasının kölgə iqtisadiyyatının həcminə təsirlərinin təhlili barədə” mövzusunda, Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Nazim Rəcəbov “Korrupsiya və iqtisadi fəaliyyət sahəsində baş verən cinayətlərin qarşısının alınmasında auditin rolu” mövzusunda, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin rəisi Orxan Nəzərli “Şəffaflıq strategiyası və “kölgə iqtisadiyyatı” ilə mübarizə: Dövlət Vergi Xidmətinin əldə etdiyi nəticələr” mövzusunda, Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidmətinin Əməkdaşlıq departamentinin direktoru Fuad Əliyev “Mühasibatlıq və auditor xidmətləri göstərən şəxslərin cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizədə rolu” mövzusunda, Azərbaycan Professional Maliyyə Menecerləri Assosiasiyasının prezidenti Nuriyyə Novruzova “Mühasibat uçotu və audit: Gələcəyə baxış” mövzusunda, Rusiya Federasiyası Özünütənzimləyən Auditor Təşkilatlarının “Sodrujestvo” Assosiasiyasının Baş direktoru, İdarə heyətinin üzvü Olqa Nosova “Rusiyada auditin inkişafında peşəkar cəmiyyətin rolu barədə”, Rusiya Federasiyasının Uzaq Şərq və Arktikanın İnkişafı Nazirliyinin Büdcə departamentinin direktor müavini, Nazirliyin daxili auditoru, Rusiya Federasiyasının 3-cü dərəcəli dövlət müşaviri Dimitri Yakovenko və Rusiya Federasiyasının Özünütənzimləyən Milli Peşəkar Mühasiblər, Maliyyə Menecerləri və İqtisadçılar İnstitutunun prezident Şurasının üzvü Soslanbek Tsxovrebov “Rusiya Federasiyasının Arktik zonasının inkişafı: ilkin nəticələr, perspektivlər, xarici ölkələrin iştirakı”, Rusiya Peşəkar Mühasiblər və Auditorlar İnstitutunun prezidenti Lyudmila Xorujiy “Rəqəmsallaşmanın mühasibat uçotu və auditə təsiri”, “KPMC Audit Azərbaycan” məhdud məsuliyyətli cəmiyyətinin

direktoru Murat Karakaş “Rəqəmsallaşmaya sürətli keçid”, Rusiya Federasiyası Özünütənzimləyən Auditor Təşkilatlarının “Sodrujestvo” Assosiasiyasının İdarə heyətinin sədr müavini, Keyfiyyətə nəzarət üzrə komissiyanın sədri Nadejda Kobozeva “Rusiyada auditin keyfiyyətinə nəzarət: sistemli keçid” mövzularında əyani, digər iştirakçılar isə o cümlədən, Kiçik və orta müəssisələr üçün Avropa Mühasiblər və Auditorlar Federasiyasının (EFAA) prezidenti Salvador Marin “EFAA Böhran şəraitində kiçik və orta auditor təşkilatlarını dəstəkləyir və onları gələcəyə hazırlayır”, Türkiyə Sertifikatlı Mühasiblər və Sərbəst Auitorlar Palataları Birliyinin (TÜRMOB) Davamlı peşə inkişafı tədris mərkəzinin icraçı direktoru, professor Ali Rza Zafer Sayar “Türkiyədə Audit”, Gürcüstan Respublikasının Mühasibat uçotu, Hesabatlılıq və Auditə Nəzarət Xidmətinin Auditə nəzarət departamentinin rəhbəri Tornike Dzagnidze və həmin qurumun hüquqşünası Sofia Berianidze “Audit sanksiyası üzrə təcrübələrin müqayisəsi”, Latviya Mühasiblər Assosiasiyasının idarə heyətinin sədri Andrey Ponomaryov “Latviyada auditor xidmətlərinin keyfiyyətinin yüksədilməsində Audit Məsləhət Şurasının rolu və töhfəsi”, Kiçik və orta müəssisələr üçün Avropa Mühasiblər və Auditorlar Federasiyasının (EFAA) icraçı direktoru Paul Tompson “Avropada korporativ hesabatlılığın gələcəyi: Azərbaycandakı şirkətlər üçün nəticələri nədir və gələcək addımlar necə olmalıdır”, Makedoniya Respublikasının Sertifikatlı Auditorlar İnstitutunun prezidenti Draqan Dmitrov “Kiçik və inkişaf etməkdə olan iqtisadiyyatlarda Beynəlxalq Audit Standartlarından istifadənin üstünlükləri və zəif tərəfləri”, Özbəkistan Milli Mühasiblər və Auditorlar Assosiasiyası Şurasının sədri Münəvvər Tulaxodjayeva “Özbəkistanda mühasibat uçotu və auditdə şəffaflığın təmin edilməsinin və rəqəmsallaşmanın xüsusiyyətləri”, İmtiyazlı Sertifikatlaşdırılmış Mühasiblər Assosiasiyasının (ACCA) Türkiyə, Azərbaycan, Gürcüstan və Əfqanıstan üzrə rəhbəri Filiz Demiröz “Audit və texnologiya”, Ukraynanın Yaroslav Mudriy adına Milli Hüquq Universitetinin I prorektoru, akademik Nikolay Kuçeryavenko “Müasir dövrdə virtual aktivlərin dövriyyəsinin tənzimlənməsinin bəzi aspektləri” mövzularında onlayn formada Azərbaycanda və dünyanın müxtəlif ölkələrində auditin inkişafı, şəffaflıq, yeni dövrün çağırışları, problemləri və vəzifələri ilə bağlı məruzələrlə çıxış etmişlər.

Bununla yanaşı, Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Sənaye və energetika şöbəsinin müdiri Elşən Hacizadə “Enerji auditi və onun tətbiq

effektivliyi", AMEA-nın İqtisadiyyat İnstitutunun nəzdində "Postkonfilikt ərazilərin bərpası" Elmi Mərkəzinin rəhbəri, AMEA-nın müxbir üzvü Akif Musayev "Rəqəmsal iqtisadiyyat şəraitində auditin təkmilləşdirilməsi istiqamətləri", Macarıstan Auditorlar Palatasının prezidenti Pal Tibor "COVID-19 kölgəsində kiçik və orta müəssisələr sektorunda auditə dair problemlər", Monteneqro Mühasiblər və Auditorlar İnstitutunun icraçı direktoru Rade Sekic "Monteneqroda auditin inkişafı: keçmişi, bu günü və gələcəyi" mövzularında məruzələrini konfrans üçün təqdim etmişdirlər.

Tədbirdə qonaqlarla bərabər Auditorlar Palatasının kollektivi, üzvləri və mətbuat nümayəndələri iştirak etmişlər.

Sonda beynəlxalq konfrans iştirakçıları adından ölkə Prezidenti cənab İlham Əliyevə müraciət qəbul edilmişdir.

İqtisadi-maliyyə münasibətlərində şəffaflığın təmin olunması üçün maliyyə nəzarəti sahəsində mütərəqqi dünya təcrübəsini öyrənmək və milli iqtisadiyyatın xüsusiyyətlərini nəzərə almaqla tətbiqini genişləndirmək çox vacibdir. Eyni zamanda, yeni dövrün çağırışlarını nəzərə alaraq, iqtisadi islahatların indiki mərhələsində nəzarət sistemini yenidən qurmaq, onun təsirlililiyini artırmaq sahəsində çox iş görülməlidir. Bu baxımdan keçirilmiş konfransın mövzusu böyük əhəmiyyət kəsb edir.

Eyni zamanda Konfransın xarici ölkə təmsilçiləri tərəfindən də yüksək dəyərləndirilən Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanın məharətli sərkərdəliyi ilə Müzəffər Azərbaycan Ordusunun 44 günlük Vətən Müharibəsində zəfəri ölkə iqtisadiyyatının inkişafında yeni çağırışlar və imkanlar yaratmışdır. Yeni strateji çağırışlar, dayanıqlı iqtisadi inkişafın reallaşması kontekstində Azərbaycan Respublikasının Auditorlar Palatası və Azərbaycan İqtisadçılar İttifaqının birgə təşkilatçılığı ilə yüksək səviyyədə təşkil olunmuş "Şəffaflıq və audit: yeni dövrün çağırışları, problemlər, vəzifələr" mövzusunda beynəlxalq elmi-praktik konfrans çərçivəsində aparılmış müzakirə və təhlillər ölkələrimizdə kölgə iqtisadiyyatına qarşı mübarizə baxımından faydalı olmuş, iqtisadi inkişafın davamlılığının və şəffaflığın təmin edilməsində mütərəqqi dünya təcrübəsinin öyrənilməsi və tətbiqi üçün yeni imkanlar yaratmışdır.

Tədbir ölkənin qabaqcıl KİV-də geniş işıqlandırılmışdır. Bununla yanaşı konfransla bağlı "İqtisadiyyat" qəzetində dərc edilməsi üçün material və foto-şəkillər hazırlanaraq təqdim edilmiş və "İqtisadiyyat" qəzetinin 2021-ci il 30 sentyabr - 6

oktyabr tarixli 39 (1189) nömrəli buraxılışında dərc edilmişdir. O cümlədən, konfransın keçirilməsi ilə bağlı məlumat hazırlanaraq Palatanın internet səhifəsində və sosial şəbəkələrində yerləşdirilmişdir.

Konfrans başa çatdıqdan sonra Palata sədrinin Azərbaycan Respublikası Auditorlar Palatasının 25 illik yubileyinə həsr olunmuş "Şəffaflıq və audit: yeni dövrün çağırışları, problemlər, vəzifələr" mövzusunda keçirilmiş beynəlxalq elmi-praktik konfransın yekunları barədə 2021-ci il 22 sentyabr tarixli 1/22 nömrəli sərəncamı təsdiq edilmişdir. Sərəncamda nəzərdə tutulmuş tədbirlər sırasında olan konfransın nəticələri barədə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına hesabatın hazırlanıb göndərilməsi, konfransın materiallarının toplanması, konfransda çıxış edən xarici nümayəndələrin məruzələrinin zəruri hallarda azərbaycan dilinə tərcümə edilməsi, çıxış edən məruzəçilərin və tezis təqdim edən şəxslərin materiallarındakı təklifləri təhlil edərək konfransın tövsiyələrinin hazırlanması, konfransla bağlı foto və CD materialların toplanılması, çoxaldılması və tədbirdə iştirak edən xarici qurumlara çatdırılması, konfransın nəticələri barədə foto albomun hazırlanması, foto-şəkilərin və video materialların hazırlanıb müvafiq qaydada Palatanın internet səhifəsində və sosial şəbəkələrində yerləşdirilməsi, konfransın keçirilməsinə sponsorluq edən Auditorlar Palatasının üzvləri olan auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara minnətdarlıq məktubunun göndərilməsi, Auditorlar Palatasının 25 illik yubileyinə həsr olunmuş "Yubiley təbrikləri" və "Faktlar" kitablarının aidiyyəti qurumlara, Palatanın struktur bölmələrinə, auditor təşkilatlarına və sərbəst auditorlara 1 (bir) nüsxə verilməsi, konfransla bağlı hazırlanmış materialların 2 (iki) nüsxədə arxivə təhvil verilməsi və saxlanılması təmin edilmişdir.

Eyni zamanda bildirmək istərdik ki, beynəlxalq elmi-praktik konfransın nəticələrinə dair konfransa təqdim edilmiş məruzələr əsasında Tövsiyələr işlənib hazırlanmışdır. Hazırlanmış Tövsiyələr Azərbaycan Respublikasının Prezident Administrasiyasına, Azərbaycan Respublikasının Milli Məclisinə, Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə, Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidmətinə, Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinə, Azərbaycan Respublikasının Hesablama Palatasına, Azərbaycan Respublikasının Kiçik və Orta Biznesinin İnkişafı Agentliyinə, Azərbaycan

Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasına, Azərbaycan Dövlət İqtisad Universitetinə (UNEC), Azərbaycan Kooperasiya Universitetinə, Azərbaycan Professional Maliyyə Menecerləri Assosiasiyasına və Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyinə göndərilmişdir. Bu da öz növbəsində, ölkə iqtisadiyyatının daha da şəffaflaşması, rəqabətin artması, dövlət vəsaitindən effektiv və təyinatına uyğun istifadə üzərində nəzarətin hərtərəfli gücləndirilməsi, dövlət və audit təsisatları arasında əməkdaşlığın dərinləşdirilməsi, auditin müstəqil nəzarət institutu kimi inkişaf etməsi və audit xidmətlərində rəqəmsallaşma işinə öz töhfəsini verəcəkdir.

Yekunda Auditorlar Palatasının 25 illik yubileyi münasibətilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Şəffaflıq və audit: yeni dövrün çağırışları, problemlər, vəzifələr" mövzusunda beynəlxalq elmi-praktik konfransın iştirakçılarına göndərdiyi 2021-ci il 15 sentyabr tarixli məktubundan irəli gələn vəzifələrin icrasını təmin etmək məqsədilə Palata sədrinin 2021-ci il 18 oktyabr tarixli 1/25 nömrəli sərəncamı ilə Tədbirlər Planı təsdiq edilmişdir. Tədbirlər Planında cənab Prezidentin qarşımızda qoyduğu öhdəliklər rəhbər tutularaq ölkənin iqtisadi qüdrətinin və potensialının artırılması istiqamətində üzərimizə düşən vəzifələrin bundan sonra da yüksək səviyyədə həyata keçirilməsi üçün qarşıda duran vəzifələr öz əksini tapmışdır.

Auditorlar Palatasının
icraçı direktoru **Səbuhi Gülməmmədov**